# O, həkim olmaq istəyirdi



**Ailənin böyüyü, sevimlisi olan 15 yaşlı Nigar həkim olmaq arzusu ilə yaşayırdı. Bu arzusunu gerçəkləşdirmək üçün müəllimlərinin verdiyi tapşırıqları böyük həvəslə yerinə yetirirdi. Oxuduğu hər mövzuya dərindən yiyələnir, hətta yeri gələndə sinif yoldaşlarına da kömək edirdi.**

Bütün fənlərdən yüksək qiymətlər alması Nigarın universitetə daxil olmaq arzusunu gündən-günə gerçəkləşdirirdi. Cəmi bircə il qalmışdı. Hərdən ailəsində söhbət düşəndə darıxdığını, bu bir ilin də tez keçməsini arzuladığını bildirirdi.

Oktyabrın 17-də gecə saatlarında erməni vandallarının Gəncəyə atdıqları raket bir çoxları kimi Nigarın da arzusunu ürəyində qoydu. Raketlər şəhərdə böyük dağıntılar törətdi, düşdüyü yerin ətrafında, demək olar ki, nə qədər ev vardısa, hamısını yerlə-yeksan etdi.

Bu qətliamda ailə üzvlərini itirənlərdən biri də Rövşən Əsgərov oldu. Dağıntı zamanı Rövşənin atası Suliddin kişi, qardaşı Bəxtiyar, bacısı Sevil və onun 10 aylıq körpəsi Narin, eləcə də böyük bacısının qızı - 15 yaşlı Nigar erməni cinayətinin qurbanı oldular. Rövşən özü dağıntılar altından yüngül xəsarətlə çıxarıldı. Ağır yaralanan anası ilə 15 yaşlı oğlunu isə xəstəxanaya yerləşdirdilər.

Partlayışın dalğası Nigarın təhsil aldığı 29 nömrəli tam orta məktəbə də xeyli ziyan vurdu. Bu, elə məktəbin giriş qapısında hiss olunurdu. Qapı-pəncərələr tökülmüş, içəridəki əşyalar tamamilə yararsız vəziyyətə düşmüşdü.

Məktəbin direktoru ermənilərin raket hücumu nəticəsində dünyasını dəyişən 10-cu sinif şagirdi Nigar Əsgərova haqqında ətraflı məlumat verdi. O, masanın üstünə bir neçə sənəd qoydu və ilk sözü bu oldu: “Nigar bizim əlaçı şagirdlərimizdən idi. O, əlaçı olmaqla yanaşı, həm də bacarıqlı təşkilatçı idi. Məktəbdə keçirilən bütün tədbirlərdə iştirak edirdi. Bir sözlə, Nigar bizim fəxrimiz idi”.

Sinif rəhbəri Bəsti Cəfərova da dedi ki, belə işgüzar və bacarıqlı şagirdlər az-az olur: “Siniflə bağlı nə olurdusa Nigara tapşırırdım. Çünki o, tapşırıqları yüksək səviyyədə yerinə yetirirdi. Onun 9-cu sinfi bitirməsi barədə ümumi orta təhsil haqqında attestatının surətini nəzərdən keçirə bilərsiniz. Bütün fənlər üzrə qiymətləri 4 və 5-dir. Nigarın ölümü məni çox sarsıtdı”.

Nigarın tarix müəllimi Aybəniz Süleymanova, riyaziyyat müəllimi Zümrüd Süleymanova və coğrafiya müəllimi Elgiz Hüseynov isə bildirdilər ki, bütün müəllimlər mehriban və işgüzarlığına görə Nigarla həmişə fəxr edirdilər.

Onu da qeyd edək ki, terror zamanı 29 nömrəli tam orta məktəbin Nigardan savayı bir neçə şagirdi də yaralanmışdır. Onlardan biri Nigarın əmisi oğlu Amin idi. O da partlayış zamanı dağılan evlərin altında qalmışdır. Xilasedicilərin köməyi ilə dağıntılar altından çıxarılan 6-cı sinif şagirdi xəstəxanada müalicə olundu.

Məktəbin birinci sinif şagirdi Məryəm Xəlilli və qardaşı - 6-cı sinif şagirdi Orxan Xəlilli isə Nigarın taleyini yaşayıblar. Onlar da erməni vəhşiliyinin qurbanı olublar - dağıntılar altında qalaraq həyatlarını itiriblər. Onlardan başqa, erməni terroru məktəbin digər şagirdi Ləman Qəhrəmanovanın da həyatına son qoyub.

Məktəbə yaxın ərazidə yaşayan və 10 il Nigarla bir sinifdə təhsil alan Nəzrin ən yaxın rəfiqəsi olmuş Nigarın qayğıkeşliyindən, mehribanlığından söz açdı. Sonra da əllərini üzünə qapayıb ağladı. Nigarla eyni sinifdə təhsil alan Firəngiz Cəfərli, İnci Mustafayeva da rəfiqələri haqqında ağızdolusu danışdılar və onu itirməklə həyatlarında bir boşluq yarandığını söylədilər.

Gəncəyə atılmış raket zərbələri neçə-neçə insanın ömrünü yarımçıq qoydu. Qarabağ Zəfəri ilə onların qisası alınmış oldu.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

Azərbaycan. - 2021.-5 oktyabr.- S.11.